AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

Əlyazması hüququnda

GİLƏ MEHDİ QIZI HÜSEYNLİ

# ÇAĞDAŞ AMERİKA BƏDİİ ƏDƏBİYYATINDA POSTMODERNİZMİN İNİKAS XÜSUSİYYƏTLƏRİ (DON DELILLO VƏ POL OSTER YARADICILIĞI ƏSASINDA)

5718.01 – Dünya ədəbiyyatı (ABŞ ədəbiyyatı)

Filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2017

İş Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya üzrə elmlər doktoru, professor
Qorxmaz Həsi oğlu Quliyev

Rəsmi opponentlər: filologiya üzrə elmlər doktoru, professor
Nailə Məmmədhüseyn qızı Sadıqova

filologiya üzrə fəlsəfə doktoru, dosent
Səkinəxanım Fazil qızı Vəliyeva

Aparıcı təşkilat: Bakı Slavyan Universitetinin Ədəbiyyat nəzəriyyəsi və Dunya ədəbiyyatı kafedrası

Müdafiə____05/05_ 2017-ci il saat_____-da Azərbaycan Dillər Universiteti nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.081 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat ______________________________2017-ci ildə göndərilmişdir.

D.02.081 Dissertasiya Şurasının elmi katibi,
filologiya üzrə fəlsəfə doktoru,
dosent Həmidə Əhməd qızı Əliyeva

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

*Mövzunun aktuallığı.* Postmodernizm XX əsrin sonu – XXI əsrin əvvəllərində dünyada gedən qloballaşma prosesinin humanitar elmlərdə, o cümlədən ədəbi fikir sahəsində gerçəkləşməsinin əsas vasitəsi və eyni zamanda üzvi tərkib hissəsidir. Postmodernizm XX əsrin əvvəllərindən başlayaraq bəşəriyyətin məruz qaldığı sosial kataklizmlər nəticəsində diaxron kəsimdə incəsənətdə modernizmin bərqərar olması ilə bağlı yaranmış böhranı dəf etməyə, sinxron kəsimdə mövcud bədii-estetik konsepsiyalar arasında yaranmış ixtilafları aradan qaldırmağa çalışır. Lakin sosial-ideoloji ziddiyyətlərin təcəssümü olan bədii-estetik ixtilaflar dərindirlər və təcrübə göstərir ki, sırf postmodernist vasitələrlə onların dəfi qeyri-mümkündür və hətta görkəmli amerikalı postmodernist sənətkarların əsərlərində belə bir-birinə əks meylləri barışdırmaq cəhdi çox vaxt eklektizmlə nəticələnir. Bu isə postmodernist yazıçıların dünyanı bütün rəngarəngliyi ilə göstərmək məqsədi üçün istifadə etdikləri istinad, sitat, intertekstuallıq, istehza, pastiş kimi sırf postmodernist vasitələrin bədii nümunənin müxtəlif komponentlərini bir araya gətirmək əvəzinə onların daha da aralanmasına səbəb olur. Heç də təsadüfi deyildir ki, Umberto Ekonun postmodernist ədəbiyyatın bədii cəhətdən ən yüksək nümunələri hesab olunan "Qızılgülün adı", "Fukonun kəfkiri" əsərləri də məzmun yayğınlığı baxımından diqqəti cəlb edirlər.

Lakin bununla belə müasir dünya ədəbiyyatının aparıcı istiqamətinə çevrilmiş postmodernizm milli və ümumbəşəri dəyərləri ehtiva edən bədii nümunələr ortaya qoya bilmişdir. Çağdaş sənətkarlar sübuta yetirə bilirlər ki, postmodernizmin estetik prinsiplərindən cıxış edərək bəşəriyyət üçün həyatı əhəmiyyət kəsb etmiş multikulturalizm ideyalarını gerçəkləşdirmiş olsunlar.

Müstəqilliyin əldə edildikdən sonra ölkəmizdə gerçəkləşdirilməkdə olan daxili və xarici siyasət Azərbaycan Respublikasının Dünyaya inteq-rasiyası zəminində sosial-iqtisadi institutların təkmilləşdirilməsilə paralel olaraq, mədəniyyət sahələrinin inkişafını da labüd etmişdir. Bu inteqrasiya siyasəti Azərbaycan humanitar elmlərinin Qərbin novator ideya-estetik konsepsiyalarından müvəfəqiyyətlə bəhrələnməsinə yol açmışdır. Təsadüfi deyil ki, ölkəmizdə postmodern ədəbiyyatın problemlərinin tədqiqi işinə artan maraq postmodernizmlə bağlı bir çox silsilə problemləri geniş elmi-nəzəri diskussiyaların təhlil predmetinə çevirmiş, konkret olaraq 2011-ci ildən başlayaraq keçirilən Bakı Beynəlxalq Humanitar Forumu

çərçivəsindəki "Postmodernist mədəniyyətdə ənənəvi dəyərlər sistemi"[1] (2012-ci il) və "Postmodern dövrdə milli özünüdərk"[2] (2013-cü il) platformunda fikir mübadilərləri və müzakirələrin obyektini təşkil etmişdir. Həmin müzakirələrin ortaya qoyduğu gerçəklik, yəni müasir Azərbaycan elmi fikirinin, konkret olaraq, ədəbiyyatşünaslığının dünya elmi-fəlsəfi fikrini məşğul edən qlobal problemlərin çözüm yollarının arayışı və bu kontekstdə virtuallıq realllıq, postmodern mədəniyyətdə dəyərlər sistemi problemlərinin yeni (postmodern) ideya-estetik zəminində təklif edilən həll variantları xüsusi maraq doğurmaya bilməz.

Eyni zamanda postmodernizmin nəzəriyyəsinin və ədəbi praktikasının tədqiqi Azərbaycan ədəbi-bədii fikri üçün həm müasir dünya estetik fikrində gedən prosesləri araşdırmaq, həm də gənc sənətkarların postmodernizm yaradıcılıq metodunun sirlərinə bələd olmaq baxımından əhəmiyyətlidir.

Məhz, bu kontekstdə Qərb, xüsusilə Amerika ədəbiyyatına marağın durmadan artması və həmin marağın məntiqi davamı olaraq çağdaş Qərb ideya-estetik platformunu formalaşdıran qələm sahiblərinin yaradıcılığının tədqiqi işinin kütləviləşməsi baş vermişdir. XX əsrin sonu – XXI əsrin əvvəllərində Amerika ədəbiyyatı və xüsusilə onun görkəmli nümayəndələri Pol Osterin və Don Delillonun yaradıcılıqları dünya postmodernist ədəbi-bədii fikrin inkişafında böyük rol oynamış və oynamaqda davam edirlər. Heç şübhəsiz ki, çağdaş ABŞ ədəbiyyatının meynstriminin (mainstream[3]), yəni amerikan ədəbi ənənələrinə görə, bədii söz sahəsindəki aparıcı tendensiyalarının təsbit edilməsi baxımından müasir milli (ABŞ) ədəbiyyatının "sima"sını müəyyənləşdirən aparıcı qələm sahiblərindən Pol Oster və Don Delillo yaradıcılığının tədqiqi və əsərlərinin təhlili müəyyən görmə bucağından dünya postmodernist ədəbiyyatın səciyyəvi cəhətlərini üzə çıxarmaq və ümumiləşdirmək deməkdir. XX əsrin 80-ci illərindən etibarən ABŞ ədəbiyyatşünaslığının tədqiq hədəfinə çevrilmiş və zamanla digər

---

[1] Bakı Beynəlxalq Humanitar Forumunun materialları. Bakı: Şərq-Qərb, 2013, 544s.

[2] Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində Azərbaycan Dillər Universitetinə həvalə olunmuş "Postmodern dövrdə milli özünüdərk" bölməsinin materialları. Bakı: ADU, 2013, 335 s.

[3] Чупринин С. Мейнстрим // Литературные термины и понятия http://samlib.ru/a/alina_a/opredelenia.shtml#a011

ölkələrdən olan araşdırmaçıların diqqətini cəlb etmiş Pol Osterin[1] və Don Delilo[2] yaradıcılığının günümüzədək Azərbaycan ədəbiyyatşünaslığının sistemli tədqiq hədəfini təşkil etməməsi də təqdim edilən dissertasiyanın aktuallığını şərtləndirən amillərdən sayılmalıdır.

Məhz bu səbəbdəndir ki, təqdim edilən dissertasiya araşdırmasında çağdaş amerikan ədəbiyyatında postmodernizmin inikas xüsusiyyətlərinin araşdırılması ümumilikdə ölkəmizdə aparılan araşdırma tendensiyalarına yeni aspektlər qazandırmasını hədəf alması baxımından da xüsusi aktuallıq kəsb edir. Belə ki, müasir ABŞ ədəbiyyatının aparıcı simalarından sayılan Don Delillo və Pol Osterin yaradıcılığında postmodernizmin inikas spesifikasının dissertasiya çərçivəsindəki təhlili bu istiqamətli tədqiqatları fərqli və yetərincə maraqlı material və elmi ümuliləşdirmələrlə zənginləşdirə bilər.

*Tədqiqatın obyektı.* XX əsrin sonu - XXI əvvəllərində dünya humanitar fikrinin magistral inkişaf istiqamətini müəyyən edən postmodernizm və onun fəal tərkib hissəsi olan amerikan postmodernizmi tədqiqatın obyektini təşkil edirlər.

*Tədqiqatın predmeti.* Amerika ədəbiyyatında postmodernizm cərəyanının nümayəndələri Pol Ostenin və Don Delillonun yaradıcılıqları dissertasiya işinin predmetini təşkil edir.

*Mövzunun işlənmə dərəcəsi.* Postmodernizmlə bağlı müxtəlif dillərdə, o cümlədən Azərbaycan dilində çoxsaylı elmi-nəzəri araşdırmalar mövcuddur. Buna görə də dissertasiyanın mövzusu ilə bağlı bu tədqiqatları üç istiqamətdə sistemləşdirmək məqsədə uyğundur. Birinci istiqamət postmodernizmin ümumi problemləri ilə bağlı tədqiqatları ehtiva edir. Bu baxımdan Azərbaycan ədəbiyyatşünaslığında R.Əliyevin, Q.Quliyevin və C.Yusiflinin[3] başqa tədqiqatçıların əsərlərini qeyd etmək olar. Bədii ədəbiyyatda postmodernizm problemi rus ədəbiyyatşünaslığının da diqqət

---

[1] http://www.royalbooks.com/searchResults.php?category_id=961&action=browse &orderBy=author
http://www.dissercat.com/content/transformatsiya-zhanrovykh-konventsii-avtobiografii-i-detektiva-v-proze-amerikanskogo-postmo

[2] http://perival.com/delillo/ddlitcrit.html
http://cheloveknauka.com/don-de-lillo-osobennosti-tvorcheskih-poiskov-prozaika

[3] Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Qanun nəşriyyatı, 2012, 463 s.; Quliyev Q. XX əsr ədəbiyyatşunaslıq konsepsiyaları. Bakı: Çaşıoğlu, 2012, 343 s.; http://www.azadliq.org/a/24376814.html

mərkəzindən kənarda qalmamışdır. İ.İlyinin, N.Mankovskayanın [1] və digərlərinin əsərləri rus tədqiqatçılarının bu sahədə apardıqları ciddi araşdırmalarının nəticəsidir. Əlbəttə ki, postmodernizmin araşdırılması sahəsində bu konsepsiyanın təşəkkül tapdığı məkanın nümayəndələrinin tədqiqatları böyük önəm kəsb edir. Biz yalnız üç nəfər görkəmli tədqiqatçının - P.Andersonun, H.Bertensin və K.Donovanın [2] adlarını çəkməklə kifayətlənəcəyik.

Dissertasiyada qaldırılan problemlərin öyrənilməsinin ikinci istiqaməti P.Osterin yaradıcılığı ilə bağlıdır. Müxtəlif dünyagörüş mövqelərindən çıxış edən tənqidçilər onun əsərlərinə resenziyalar yazmış, yaradıcılığına monoqrafiyalar həsr etmişlər. Onların arasında D.Baronun, A.M.Holzapfelin və C.Pikokun[3] əsərlərin xüsusilə qeyd etmək lazımdır.

İngilis dilli ədəbiyyatda D.Delillonun da yaradıcılığı daim diqqət mərkəzində olmuşdur. Bu baxımdan H.Blumun, C.Dyueyin və F.Lentriçianın[4] əsərlərini xüsusilə qeyd etmək lazımdır.

P.Osterin məşhur “Nyu York trilogiyası”nın Azərbaycan dilində çap olunması oxucularımızın Amerika postmodernizmi ilə də bilavasitə tanışlığı yolunda mühüm addımdır.[5] Şair və tənqidçi Qismət Rüstəmovun yenicə çapdan çıxmış "Gələcəyin tarixi" kitabı[6] adı çəkilən yazıçıların və ümumiyyətlə, Amerika postmodernist sənətkarlarının yaradıcılıqlarının araşdırılmasına giriş kimi dəyərləndirilə bilər.

---

[1] Ильин И.П. Постмодернизм от истоков до конца столетия: Эволюция научного мифа. М.: Интрада, 1998, 255 с.; Маньковская Н.В. Эстетика постмодернизма, СПб: Алетейя, 2000, 346 с.

[2] Anderson P. The origins of postmodernity. London, N.Y.: Verso, 1998, 150 p.; Bertens H. The idea of postmodern: A history. London: Routledge, 1995, 284 p.; Donovan Ch. Postmodern Counternarratives. London: Routledge, 2009, 260 p.

[3] Barone D.(ed.) Beyond the Red Notebook. Essays on Paul Auster. Philodelphia: Univ. of Pennsylvania press, 1995, 203 p.; Holzapfel A.M. The Nyu-York Trilogy: Whodunit? Trackingthe structureof Paul Auster's anti-detektive novels. Frankfurt am Main: Lang, 1996, 122p.; Peacock J. Undersstanding P.Auster. Columbia,SC: University of South Carolina Press, 2010, 264 p.

[4] Bloom H. Don DeLillo (Bloom's major novelists). Pliladelphia:Chelsea House publ., 2003, 182 p.; Dewey J. Beyond grief and nothing: A reading of D.DeLillo. Columbia,SC: University of South Carolina Press, 2006, 172 p.; Lentricchia F. Introducing Don DeLillo. Nc.: Duke univ.Press, 1991, 221p.

[5] Oster P. Nyu-York Trilogiyası (roman) Bakı: Qanun, 2014, 416 s.

[6] Rüstəmov Q. Gələcəyin tarixi. (esse) Bakı: Mütərcim, 2016, 336 s.

*Dissertasiya işinin məqsəd və vəzifələri*

Tədqiqatın əsas məqsədi ədəbi-bədii fikirdə postmodernist ideyaların təşəkkülü və inkişafı kontekstində görkəmli Amerika yazıçıları P. Osterin və D.Delillonun yaradıcılıqlarını araşdırmaq və bu zəmində Amerika ədəbiyyatının son onilliklərdəki durumu ilə bağlı bütöv təsəvvür formalaşdırmaqdadır. Bu məqsədə aşağıdakı vəzifələri həyata keçirməklə nail olmaq olar:

- dünya humanitar fikrində postmoderizm konsepsiyasının yaranması və öncül mövqeyə keçməsinin tarixinin və şəraitinin araşdırılması;
- postmodernizmin təşəkkülü, məhz həmin mərhələlərin və həmin mərhələlərin özəlliklərinin üzə çıxarılması;
- postmodernist düşüncə tərzi kontekstində müasir Amerika ədəbiyyatının bədii xüsusiyyətlərinin müəyyən edilməsi;
- P.Osterin yaradıcılığının müasir ədəbi-bədii fikirdə yerinin müəyyən olunması;
- P.Osterin təhkiyəsinin özəl xüsusiyyətlərinin araşdırılması;
- D.Delillonun timsalında Amerika və dünya ədəbi-bədii fikrində gerçəkliyin fraqmentar təcəssümü və onun aradan qaldırılması yollarının müəyyən olunması
- D.Delillonun yaradıcılığında "atomar" insan konsepsiyasının araşdırılması

*Tədqiqatda istifadə olunan metodlar.* Postmodernizmin nəzəriyyəsi və praktikası paradoksal şəkildə modernist dünya duyumu və dünyagörüşü saxlamaq şərtilə incəsənətin klassik ənənələrini və dəyərlərini bərpa etməyə can atır. Dissertasiyada istifadə olunan metodlar postmodernizmin bu cəhətlərinin əsassız olduğunu üzə çıxarmaqla bağlıdır. Bundan əlavə tədqiqatın quruluşu P.Osterin və D.Delillonun yaradıcılıqlarında postmodernist dünyagörüşünün yaranması və inkişafı kontekstində şərh olunmasına əsaslandığına görə ümumidən xüsusiyə keçidi əks etdirən deduktiv metoduna əsaslanır. Tədqiqatda həmçinin müqayisəli-tarixi metoddan istifadə olunmuşdur.

*Tədqiqatın elmi yeniliyi.* P. Osterin və D.Delillonun yaradıcılığları ayrı-ayrılıqda həm dünya, həm də Amerika ədəbiyyatşünaslığında kifayət qədər ətraflı öyrənilmişdir. Lakin bu iki sənətkarın yaradıcılıqlarının bir araya gətirilməsi, yaradıcılıqlarının dünyada və Amerikada postmodernizmin təşəkkülü və inkişafı kontekstində araşdırılması, onların dünya postmodernizm hərəkatının üzvi tərkib hissələri olmaları dissertasiyanın elmi yeniliyi hesab oluna bilər. P.Osterin və D.Delillonun

yaradıcılıqlarına belə bir yanaşma üsulu onların ədəbi-bədii fikirdə mövqeylərini hər tərəfli şəkildə açıqlamağa imkan verir.

*Müdafiəyə çıxarılan müddəalar.* Dissertasiyanın müdafiəsinin aşağıdakı nəzəri müddəalar əsasında həyata kecirilməsi nəzərdə tutulur:

- humanitar biliyin bütün sahələrini ehtiva etməyə can atan postmodernizm yarandığı ilk dövrlərdə universal kateqoriyalardan və dəyərlərdən çıxış etmişdir;
- sitat, istinad, pastiş, intertekstuallıq kimi vasitələrdən istifadə edən postmodernizm heç zaman müstəqil dünyanı dərk və yaradıcılıq konsepsiyası iddiasında olmamışdır;
- P.Osterin simasında modernist deyim tərzi ilə dialoqa girib özəl keyfiyyətləri ilə fərqlənən postmodernist təhkiyə yaratmağa cəhd edən sənətkarlar məqsədlərinə nail olmamış, modernist deyim tərzinin yeni estetik səciyyə daşıyan variantını ortaya qoymuşlar;
- D.Delillo XX əsrin əvvəllərindən modernist ədəbi-bədii nümunələrdə öz əksini tapmış fraqmentarlıq uçurumunu nəyinki aradan qaldırmamış, əksinə onu daha da dərinləşdirilmışdir.

*Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.* Dissertasiyanın bir sıra elmi nəticələri və qənaətləri dünya və Amerika ədəbiyyatının ədəbiyyatşünaslığımız tərəfindən öyrənilməsi sahəsində postmodernizmin bugünki durumu və inkişaf prespektivləri ilə bağlı düzgün və dolğun təsəvvürlərin formalaşmasında öz rolunu oynaya bilər. Amerika postmodernizmində gedən bir sıra proseslərin timsalında müasir Azərbaycan ədəbiyyatının bir sıra qanunauyğunluqlarının müəyyən olunmasında dissertasiya öz töhvəsini verə bilər. Tədqiqatın nəticələrindən dünya və Amerika ədəbiyyatının müasir dövrünün tədrisi prosesində filoloji fakültələrdə istifadə etmək olar.

*Tədqiqatın aprobasiyası.* Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir. Tədqiqatda irəli sürülən fikir və mülahizələr elmi konfranslarda, seminarlarda, həmçinin ölkədə və xaricdə dərc olunmuş məqalələrdə öz əksini tapmışdır.

*Disertasiyanın quruluşu.* Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın *Giriş* hissəsində mövzunun aktuallığı, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, mövzunun işlənmə səviyyəsi, tədqiqatın elmi yeniliyi, metodologiyası, nəzəri və təcrübi əhəmiyyəti əsaslandırılır, müdafiəyə çıxarılan müddəalar, tədqiqatın aprobasiyası və quruluşu haqqında məlumat təqdim edilir.

Disertasiya işinin birinci fəsli *"Bədii ədəbiyyatda postmodernizm problemi"* adlanır. Bu fəslin *"Postmodernist ədəbiyyatın tarixi və yaranma şəraiti"* adlanan birinci yarım fəslində humanitar fikrin bütün sahələrini ehtiva etmək iddiasinda olan postmodernizm konsepsiyasının yaranma səbəbləri və tarixi şəraiti nəzəri-xronoloji aspektdə araşdırılmışdır. Məlumdur ki, "postmodernizm" anlayışının meydana gəlmə səbəbləri və dövrü ilə bağlı müxtəlif mənbələrdə fərqli versiyalar mövcuddur. Bu, hər şeydən əvvəl anlayışın ifadə etdiyi mədəni hadisəni ehtiva etməyin mümükünsüzlüyü və yalnız onun mənasının açıqlanması imkanı ilə bağlıdır. Bir sıra mənbələr bu anlayışın ilk dəfə R.Pannvisin "Avropa mədəniyyətinin böhranı"(1917) kitabında işləndiyini iddia edirlər. Pannvis və 1934 –cü ildə "postmodernizm"i yenidən gündəmə gətirən F.de Onis üçün bu anlayış modernizmdən fərqli yeni dünya görüş mövqeyi və bədii-estetik konsepsiya yox, ona qədər mövcud olmuş bütün cərəyanları tərtib edən antikonsepsiyadır. İngilis alimi P.Anderson isə bədii-estetik konsepsiya qismində postmodernizmin Qərbi Avropada və ABŞ-da deyil, Latın Amerikasında formalaşdığını göstərirdi. Onun fikrincə postmodernizmin yaranması estetik fikirdə dəyişiklik etməklə yox, modernizmin çərçivəsində mühafizəkar tendensiyaları qoruyub saxlamaq cəhdi ilə müəyyənləşir.[1]

"Postmodernizm" anlayışını ingilis dilli hümanitar fikrə 1954-cü ildə tarixçi- filosof A.Toynbi gətirmişdir. O, postmodern durumun başlanğıcını XIX əsrin sonlarına aid edir və bunu qərb aləminin öz eqoist məqsədlərindən ötrü dünyanın yerdə qalan bölgələrini sarsıntılara məruz etmək hesabına öz ictimai-siyasi sabitliyini qoruyub saxlamaq niyyəti ilə bağlayır. Keçən əsrin 50-ci illərində amerikalı şair Ç.Olson "postmodernizm" anlayışının semantikasından daha konkret və məqsədyönlü şəkildə istifadə edərək göstərirdi ki, dünya tarixində XX əsrin birinci yarısından postmodern, yaxud post-qərb dövrü başlayır. Əgər uzun müddət "postmodern" anlayışı bütün humanitar fikri ehtiva edirdisə, keçən

[1] Anderson P. The origins of Postmodernity. London: Verso, 1998, p.50

əsrin 50-ci illərinin sonuna yaxın amerikalı tədqiqatçılar Ç.Rayt Mills və Y.Houi tərəfindən bu termin estetik anlamda istifadə olunmağa başladı. Belə ki, Ç.Rayt Mills belə hesab edirdi ki, II Dünya müharibəsindən sonra liberal ideyaların bərqərar olmaları ilə bağlı modernizm yetərsizliyini tamamilə sübuta yetirmiş və süquta uğramışdır. Bu baxımdan Houi göstərirdi ki, əgər "modern" anlayışı bədii fikrin cəmiyyətdə mövcud olan ziddiyyətləri üzə çıxarmaq və ifşa etmək qabiliyyətini nümayiş etdirirdisə, "postmodern" anlayışı ictimai siniflər arasındakı fərqlərin aradan qaldırılmasına və bununla bağlı cəmiyyətdə hökm sürən kompromis ovqatını ifadə etməyə xidmət edir. Postmodernist sənətkarlar modernistlərdən fərqli olaraq kommersiya məqsədi üçün yazıb-yaradırlar.

Postmodernizm konsepsiya qismində ingilis dilli ədəbiyyatşünaslıqda ABŞ-da 1972-ci ildə "Baundari 2" (“Boundary 2”) jurnalının nəşri ilə təşəkkül tapmışdır. Bu jurnalda çap olunan məqalələrdə postmodernizmin meydana gəlməsi Amerika estetik fikrinə xarici amillərin təsiri ilə izah olunurdu.

ABŞ-da postmodernist ideyaların yayılmasında İ.Hassanın müstəsna xidmətləri olmuşdur. Elmi fəaliyyətinin ilk dövrlərində Amerika ədəbiyyatında ekzistensialist ideyaların təcəssüm özünəməxsusluğu ilə məşğul olan bu əslən misirli tədqiqatçı keçən əsrin 60-cı illərindən başlayaraq ədəbi-bədii fikirdə postmodernist ideologiyanın qızğın tərəfdarı kimi çıxış etməyə başladı. Onun fikrincə postmodernistlər müasir dövrdə “nəsnələr dünyasının parçalanıb dağılması” və “mütləq həqiqətlərin mövcud olmaması qənaəti” ilə bağlı insanlarda formalaşmış psixi durumu adekvat şəkildə inkar edirlər. İ.Hassan modernizm və postmoderniz paradiqmaları arasında varislik münasibətlərinin mövcud olmasını iddia edirdi və eyni zamanda göstərirdi ki, bunların hər ikisinin təməlində poststrukturalist ideyalar durur.

Keçən əsrin 80-cı illərinin sonunda İ.Hassanın münasibəti kəskin dəyişdi: "Mənim fikrimcə, postmodernizmin özü lazım olmayan tərəfə dönərək mahiyyət etibarilə dəyişmişdir. İdeoloji təcavüz və ifşaedici boşboğazlıq erasında sıxılıb çabalayan, özünəməxsus diskurs tərəfindən əzilən postmodernizm bir növ eklektik zarafata çevrilmişdir." [1] Tədqiqatçının bu etirafı artıq nəzəri fikirdə postmodernizmlə bağlı böhran meyllərinin yaranmasından xəbər verir.

---

[1] Hassan İ.The Postmodern Turn: Essays in Postmodern Theory and Culture. Ohio Univ.Press, 1987, 267p.

“Postmodern” anlayışının fəlsəfi dövrüyəyə daxil edilməsi ilk növbədə fransız filosofu J.Liotarın “Postmodernin durumu” (1974) əsəri ilə bağlıdır. Liotar belə hesab edirdi ki, XVIII əsrdən başlayaraq bəşər tarixi iki böyük təhkiyə ilə səciyyələnir. Bunlar Böyük Fransa Burjua inqilabının və alman idealizminin ortaya qoyduqları universal təhkiyələrdir. Postmodern dövründə müəyyən səbəblər üzündən bu təhkiyələrin hər ikisinə inam yoxa çıxır və onlar bir-birilə rəqabət aparan saysız-hesabsız xırda təhkiyələrlə əvəz olunurlar. Liotar alman filosofu Y.Habermas kimi modernizmin postmodernizm tərəfindən əvəz olunması faktını XX əsrdə ictimai həyatda baş verən və bu iki təhkiyənin müddəalarını şübhə altına alan köklü dəyişikliklərlə izah edir.

Liotardan fərqli olaraq amerikalı filosof F.Ceymisson bu müddəanı çoxsaylı faktları ümumiləşdirib sistemləşdirməklə əsaslandırdı və bunu estetik fikir sahəsinə tətbiq etdi. Onun fikirincə XX əsrin iki aparıcı bədii-estetik cərəyanı olan realizm və modernizm mürəkkəb və ziddiyyətli gerçəkliyi təcəssüm etmək iqtidarında deyillər və bu, postmodernizm üçün meydan açır. Öz sələflərindən fərqli olaraq orijinallıq və yenilik iddiasında olmayan postmodernizm ədəbi praktikada uzun müddət ərzində sınaqlardan çıxmış ənənəvi bədii vasitələrdən geniş şəkildə istifadə edir. Vaxtı ilə Platonun “surətin surəti” kimi səciyyələndirdiyi və fransız filosofu J.Bodriyyar tərəfindən postmodernist fikri tətbiq olunan “simulakr” anlayışından bədii fikirdə istifadə olunması da Ceymissonun adı ilə bağlıdır.

“Postmodernizm” anlayışı ilə ədəbi-bədii fikirdə modernizmin süqutunu qeydə alan tədqiqatçılar çağdaş ədəbiyyatda onun rolunu mütləqləşdirməklə tələsikliyə yol vermişlər: ekzistensializm, “yeni roman”, “absurd teatr” kimi konsepsiyalar faktiki olaraq qərb estetik fikrini XX əsrin sonuna kimi təsvir etməkdə davam etmişlər. Lakin bu da bir həqiqətdir ki, daha çevik ifadə vasitələrinə malik olan postmodernizm modernist cərəyanların süqutu üçün meydan açdı.

Birinci fəslin *“Postmodernist ədəbiyyatın bədii xüsusiyyətləri"* adlı ikinci yarımfəslində postmodernist poetikanın problemləri araşdırılmışdır. Postmodernizm yaradıcılıq metodu kimi təşəkkül tapdığı dövrdən özündən əvvəlki cərəyanların ona uyğun gələn prinsip və ideyalarından, üslubi vasitə və priyomlarından istifadə etmək niyyətində olduğunu təyin etmişdir. Həqiqətən də postmodernizm açıq və gizli sitat işarə şəklində müxtəlif "yad" elementlərdən bəhrələnmişdir. Buna görə də postmodernizmin bədii xüsusiyyətlərinin təhlili müəyyən görmə bucağı altında XIX-XX əsr aparıcı

estetik prinsiplərin ədəbi praktikada gerçəkləşməsinin nəzərdən keçirilməsidir.

Postmodernizmin poetikasında "pastiş" ifadə üsulundan istifadə mühüm yer tutur və parodiyadan fərqli olaraq heç bir ilkin mətnə istinad etmir. Pastiş də parodiya kimi təqliddir, üslubi maskadan istifadə formasıdır. Lakin pastişin parodiyadan əsas fərqi istehza və gülüş hədəfinə çevirdiyi obyektə tənqidi yanaşmaq iqtidarında deyil və ona neytral münsibət bəsləməsindədir. Buna görə də parodiyadan fərqli olaraq pastiş inkar pafosundan məhrumdur: "Satirik başlanğıc pastişdə faktiki olaraq amputasiya edilmişdir; pastiş gülmək qabiliyyətindən məhrumdur. Anormal dildə danışan pastiş sağlam dil mühitinin bərpasına ümüdini itirmişdir".[1]

Postmodernist poetikada mühüm yer tutan "intermətnlik" anlayışı ilk dəfə 1967-ci ildə fransız alimi Y.Kristeva tərəfindən elmi dövriyyəyə buraxılmışdır və M.Baxtinin ədəbi-bədii mətnlərin sinxron və diaxron planlarda labüd şəkildə digər mətnlərlə əlaqəyə girməsi konsepsiyası əsasında formalaşmışdır. R.Bart Y.Kristevanın konsepsiyasını inkişaf etdirirək göstərirdi ki, mətnin əsasını onun digər mətnlərə çıxışı təşkil edir: "Hər bir mətn intermətndir... köhnə sitatlardan hörülmüş parçalardır."[2]

R.Bartın dediklərindən belə çıxır ki, guya yalnız postmodernist mətndə sitat texnikasından istifadə olunmağa başlanmışdır. Halbuki dünya ədəbiyyatında elə bir bədii- estetik konsepsiya mövcud olmamışdır ki, bu və ya başqa şəkildə özündən əvvəlki ənənələrə istinad etməsin. Lakin R.Bart o cəhətdən haqlıdır ki, əgər əvvəlki dövrlərdə sitat və istinad sistemsiz xarakter daşıyırdısa, postmodernistlər intermətnliyi öz poetikalarının aparıcı konsepsiyasına çevirmiş və onun semantik imkanlarından sistemli şəkildə istifadə etmişlər.

Postmodernist intermətnlik "palimsest" prinsipinə söykənir. Palimsest üstündə əvvəlki yazısı pozulmuş, yerinə yeni mətn yazılmış perqament əlyazmasına deyilir. Bu halda yeni mətn əvvəlki mətnin üzərində yazılır. Bu halda köhnə mətn yoxa çıxmır, onun semantikası virtual şəkildə bəzən ziddiyyətə girir, bəzən də onu yeni çalarlarla zənginləşdirir.

Modernizm keçmiş ənənə ilə əlaqələrdən imtina edir. Postmodernizm isə keçmişi üç istiqamətdən qəbul edir: birincisi, ontoloji planda (dünyada heç bir hadisə baş vermir, bütün hadisələr keçmiş hadisələrin təkrarıdır); ikincisi, ifadə planında (hər şey haqqında mümkün olan hər bir şey artıq

---

[1] Tabby J. Postmodern sublime: technology and American writing from Mailer to Cyberpunk. N.Y.: Cornell University Press, 1995, p. 243

[2] Барт Р. Избранные работы: Семиотика. Поэтика М.: Прогресс, 1994, с. 345

deyilmişdir); üçüncüsü metodoloji planda (mövcud diskurslarda artıq bütün mümkün üsullardan istifadə edilmişdir).

Postmodernist mətnin təşkilində “yad” deyimlərin özünküləşdirilməsi böyük rol oynayır. Eklektizm prinsipindən çıxış edən postmodernistlər bədii üzvi vəhdətin əldə olunmasına can atmalıdırlar ki, müəyyən konteksdə müxtəlif deyim tərzlərinin təmasa girməsinə nail olsunlar. U. Eko bunu “intermətn dialoqu” kimi səciyyələndirir. Bu, postmodernizmin bütün mövcud mətnlərə eyni münasibət bəsləməsinə səbəb olur. Nəticədə, birincisi, intermətnlik kimi xarakterizə olunan hadisə postmodernist mətnin özündən əvvəlki mətnlərlə yanaşı, özündən sonra yaranacaq mətnlərə də təsir etmək imkanına meydan açır. İkincisi, intermətnlik genetik plandan daha çox funksional plan baxımında əhəmiyyət kəsb edir. R.Bartın fikrincə, intermətnliyin bədii-estetik xüsusiyyətləri qaynaq qismində deyil, onun dinamikasında, müxtəlif deyim tərzlərini üz-üzə gətirməsində üzə çıxır.

Total istehza intermətnliyi təmin edən əsas bədii vasitələrdən biridir. Postmodernist konteksdə istehza mətnin gizli mənasını üzə çıxarmağa xidmət edir və obyektiv şəkildə mövcud məna ilə sənətkarın niyyəti arasındakı fərqə əsaslanır. Postmodernist istehza semantik baxımdan antivalent səciyyə daşıyır: o bir tərəfdən müxtəlif mənbələrin ortaya qoyduqları gerçəkliyin həqiqiliyinə şübhə ilə yanaşır, digər tərəfdən gerçəkliyi yoxlamaq, bərkdən-boşdan çıxarmaq üsulu kimi çıxış edir. İspan mütəfəkkiri Orteqa-i-Qasset istehzanı incəsənətin özünü kənar dağıdıcı təsirlərdən mühafizə etməsinin yeganə səmərəli üsulu hesab edirdi: XX əsrdə dünyanın müxtəlif bölgələrində hökm sürən sosial-ideloji totalitarizm şəraitində incəsənət yalnız özü-özünü ələ salmaqla hifz edə bilər. Məhz buna görə də ontoloji cəhətdən istehza əzəliliyi, yaradıcılıq baxımdan orijinallığı əldə etməyin qeyri-mümkünlüyü konsepsiyasından çıxış edən postmodernist düşüncə tərzinin aparıcı kateqoriyasına çevrilir.

Dissertasiya işinin ikinci fəsli *“Pol Osterin yaradıcılığında postmodernist təhkiyə problemi"* adlanır. Bu fəslin birinci yarımfəslində *(“Pol Osterin yaradıcılığı müasir Amerika ədəbiyyatında”)* müasir bədii prossesin əsas fiqurlarından biri olan Pol Osterin Amerika ədəbiyyatında mövqeyi müəyyənləşdirilir. Yazıçının yaradıcılığının ən ümdə cəhətlərindən biri onun XX əsrin sonu - XXI əsrin əvvələrində ictimai gerçəkliyin xüsusisiyyətlərini bütöv şəkildə təcəssüm etmək üçün incəsənətin müxtəlif növlərinə müraciət etməsi ilə bağlıdır. Bu, P.Osterin əsərlərində müxtəlif bədii üsul və priyomların qaynayıb-qarışmasına, onun sintetiklik iddiasında olan üslubunun universallıq kəsb etməsinə və onun öz

deyim tərzi ilə diqqəti cəlb edən postmodernist sənətkara çevrilməsinə səbəb olur.

P.Oster ədəbiyyat aləminə keçən əsrin 80-cı illərində “Nyu-York trilogiyası” "("New York trilogy") əsəri ilə daxil olmuşdur. Postmodernist roman poetikasının prinsipləri əsasında yazılmış trilogiya ("Şüşə şəhər" ("City of glass"), "Qarabasmalar"("Ghosts"), "Qıfıllı otaq" ("The locked room") ilk növbədə özünün detektiv sujet xətti ilə diqqəti cəlb edir. Lakin mahiyyət etibarilə əsər hansı isə sirrin açılmasına yönəlmiş “təmiz detektiv” nümunədən daha artıq XX əsrdə bəşər övladının üz-üzə gəldiyi ekzistensial problemlərin təcəssümünə həsr olunmuşdur: bu dövrdən başlayaraq şəxsiyyət məsələsi sənətkarın bütün yaradıcılığının aparıcı mövzusuna çevrilir. Qeyd etmək lazımdır ki, müasir Amerika cəmiyyətinin üzləşdiyi sosial və ekzistensial problemləri əks etdirmək üçün yazıçı Avropa roman ənənələrindən və deyim üslubundan yaradıcı şəkildə istifadə edə bilmişdir. Nəticədə o, XX əsrin son rübündə Amerika tənqidi tərəfindən milli söz sənətinin aparıcı nümayəndələrindən biri kimi dəyərləndirilir. Bu cəhətdən onun əsərlərinin təhlili əsasında təkcə Amerikanın deyil, müəyyən nəzər nöqtəsindən bütün müasir qərb ədəbi prossesinin qanunauyğunluqlarını üzə çıxarmaq mümkündür. P.Osterin yaradıcılığı postmodernist roman poetikasının hüdudları daxilində müasir dövrdə insanın üzləşdiyi ekzistensial problemləri əks etdirməsi baxımından diqqəti cəlb edir. Onun əsərlərində tez-tez təsadüf olunan “divar”, “maneə” kimi metaforik səciyyəli obrazlar XX əsrin sonlarında bəşər nəslinin bütövlükdə və fərdlərin ayrı-ayrılıqda üzləşdikləri ekzistensial problemlərin işıqlandırılmasına yönəlmişdir. Sənətkarın qəhrəmanlarını ekzistensialist “sərhəd durumu”nda təsvir etmək cəhdi də bununla bağlıdır.

P.Osterin yaradıcılığında postmodernist düşüncə tərzinə xas olan xüsusiyyətlər, o cümlədən müxtəlif deyim tərzlərinin bir araya gətirilməsinə edilən cəhdlər modernist ideologiyanın və onun əsaslandığı fəlsəfi konsepsiyaların, ilk növbədə ekzistensializm zəminində həll etmək cəhdi ilə bağlıdır.[1]

Lakin şübhəsiz sənətkarın əsərləri hər şeydən əvvəl postmodernist poetikanın özəlliklərinin bədii yaradıcılığa tətbiq olunması ilə diqqəti cəlb edirlər: tədqiqatçıların fikrincə, P.Oster postmodernist düşüncə tərzini

---

[1] http://www.tandfonline.com/doi/abs/10.3200/CRIT.45.2.191-206?journalCode=vcrt20 Oberman W. Existensialism meets in postmodernism in P.Auster's "The music of chance"/ Critiue studiesin contemporary Fiction, 2004, volume 45, no 2, p. 191

xarakterizə edən, fəlsəfi "simulakr" anlayışını ədəbiyyata gətirən, onun konkret bədii obraz qismində təcəssüm olunmasına nail olan ilk sənətkardır. P.Oster sosial konteksti ön plana çəkməklə insanın fərdi xüsusiyyətlərindən məhrum olması prossesini bütün çılpaqlığı ilə göstərə bilmişdir. Real cəmiyyətdə olduğu kimi onun əsərlərində də insanlar xarici görünüşləri ilə bir-birilərindən fərqlənsələr də, daxilən eynidirlər, bir-birilərinin təkrarıdırlar. Müasir dünyada insanın düçar olduğu bəlaları səciyyələndirən simulakr sənətkarın yaradıcılığında özünü iki müstəvidə biruzə verir. Birincisi, hər bir sənət əsəri kimi ədəbi-bədii nümunə də simulakrdır, yəni gerçəkliyin adekvat təcəssümü yox, yazıçının uydurmasıdır. İkincisi, XX əsrin ikinci yarısında sosial gerçəkliyin bütün elementləri simulakra, yəni arxasında heç bir reallıq durmadığı üçün ikiqat simulakrlaşmağa məruz qalır: klassik ədəbi obrazlardan fərqli olaraq P.Osterin personajları insanın kölgəsinin kölgəsinə bənzəyirlər.

Modernist sələflərinin irsini tənqidi süzgəcdən keçirmək zəruriyyəti ilə üzləşən P.Oster öz yaradıcılığında bədii bütövün qırıqlarını bir yerə toplamağa, postmodernist poetikanın qanunları əsasında onları birləşdirməyə cəhd göstərir.

Dissertasiya işinin ikinci fəslinin ikinci yarımfəslində *("Pol Osterin əsərlərində postmodernist təhkiyənin təzahür xüsusiyyətləri")* P.Osterin postmodernist təhkiyəsinin özünəməxsusluğu, sənətkarın yaradıcılığında gerçəkliyin bədii təcəssümünün müxtəlif formalarının üzvü vəhdətdə birləşməsinin səbəbləri araşdırılır. Bütün bu cəhətlər özünü P.Osterin artıq ilk məşhur nəsr əsəri "Nyu-York trilogiyası"nın bütün komponentlərində- ideya məzmununda, bədii vasitələrində, deyim və təhkiyə tərzində özünü biruzə verir. Bu əsərdə istifadə olunan təhkiyə prinsipləri bir çox cəhətdən keçən əsrin 80-cı illərindən başlayaraq aparıcı cərəyana çevrilmiş postmodernizmin bir sıra köklü müddəaları ilə səsləşsə də, bəzi məqamlarda öz orijinallıqları ilə seçilirlər.

Yazıçı "Nyu-York trilogiyası"nın təhkiyəsində oxucu amilinin rolunu nəzərə alır; o, modernizmin ədəbiyyatla oxucu arasında yaratdığı uçurumu dəf etməyə, bir-birindən təcrid olunmuş, "atomlaşmış" oxucuları bir araya gətirməyə və bununla da cəmiyyətin bütövlüyünü bərpa etməyə can atır. Amma bununla yanaşı P.Oster əmin deyil ki, oxucu ilə hətta kütləvi mədəniyyət dilində danışsa belə, onunla bərabər hüquqlu təmas yarada bilər. Yazıçı başa düşür ki, oxucular bir-birilərindən zövq, intellekt və erudisiya baxımından fərqlənirlər. Onların hamısının tələblərinə cavab verə bilmək üçün P.Oster bütün oxuculara bir yerdə və eyni zamanda, ayrı-ayrılıqda müraciət edən çoxsaylı ədəbi-bədii nümunə yaratmağa cəhd edir.

P.Osterin trilogiyasında “sadəlövh oxucu”ya ünvanlanmış üst qatın mənimsənilməsi böyük səy tələb etmir və “ləzzətli oxu” (R.Bart) üçün meydan açır. Əsərdə cərəyan edən hadisələr sadə və yüngül deyim tərzindən istifadə edilərək təsvir olunurlar və yüksək ədəbi-bədii nümunələrin mütaliəçisi olmayan oxucular da trilogiyanın təhkiyəsini çox asanlıqla "dəf edirlər". Lakin əslində əsərin strukturu xeyli mürəkkəbdir, üst “kütləvi” layın altında “sadəlövh oxucu”nun dərk etmək iqtidarında olmadığı dərin semantik laylar mövcuddur.

Trilogiyada P.Oster guya Parisdə görkəmli modernist sənətkar S. Bekketlə görüşlərindən, aralarındakı ziddiyyətli münasibətlərdən söhbət açır. Əsərin təhkiyəsini bir çox cəhətdən şərtləndirən bu bədii uydurmanın arxasında XX əsr qərb humanitar düşüncə tərzində modernizmlə postmodernizm arasında sələf-xələf münasibətlərinin mövcudluğu, postmodernizmin modernizmə, o cümlədən onun deyim tərzinə varis olmağa can atması, modernizmin isə buna biganə münasibət bəsləməsi faktı durur. Hər halda “Nyu-York trilogiyası” əsərinin S.Bekketin məşhur “Mollay”, "Melon ölür" və “Adsız” romanlarının motivləri əsasında yazılması şübhə doğurmur.

İlk baxışdan P.Oster S.Bekketin “sayıqlama” poetikasına əsaslanan modernist deyim tərzinin ifrat cəhətlərindən imtina edib, onu anlaşıqlı postmodernist təhkiyə dilinə çevirməkdən və bununla da oxucunu kommunikasiya prosseslərinə cəlb etməkdən ötrü klassik realizmin ifadə üsullarından istifadə edir. Lakin o, iki bir-birinə əks ifadə olunmuş qütbdə qərarlaşmış realist və modernist təhkiyələri bir araya gətirə bilmir. Dünyadakı xaosu nəyin bahasına olursa-olsun cilovlanmağa can atan sənətkar hadisələrin məntiqi düzümünə nail ola bilmir.

“Nyu-York trilogiyası” əsərinin təhkiyə sistemini araşdıran K.Uayt göstərir ki, “Pol Oster bizə kometi deyil, onun quyruğunu göstərir. Bu quyruq səpələndikcə kometin və onun quyruğunun görünüşü get-gedə daha çox dəqiqlikdən və müəyyənlikdən məhrum olur, yayğınlaşır. Oxucu məhz bu yayğın quyruq əsasında kometin növü haqqında mülahizə yürütmək zəruriyyəti ilə üz-üzə gəlir.”[1]

Əgər S.Bekketin trilogiyasında təhkiyə insanlıq keyfiyyətlərindən məhrum olmuş, can verən personajın tələffüz etdiyi qırıq-qırıq səslər və sözlər əsasında təşəkkül tapırsa, P.Osterin qəhrəmanı postmodernist düşüncə tərzinin ifadəsinə adekvat olan təhkiyə prinsiplərində yazılı nitq

[1] White C. Auster Instance:A Ficto- Boigraphy. The Review of Contemporary Fiction, 14:1 (Spring 1994), pp. 26-29.

konsepsiyasına uyğun gəlir. Lakin bu iki sənətkarın deyim tərzi bir nöqtədə labüd şəkildə birləşir: Bekket və Oster öz təhkiyələrini fərqli prinsiplər əsasında qurmalarına baxmayaraq əldə etdikləri nəticə mahiyyət etibarı ilə eynidir; bu yazıçıların hər ikisinin əsərlərində gerçəkliyə arxa çevirmək məqsədilə istifadə olunan söz paradoksal şəkildə öz əksinə çevrilir - oxucuya insanın varlığının məğzinə varmaq, metafiziki problemləri ilə yanaşı konkret ağrı və əzablarını dərk etmək imkanı verir.

P.Oster "Nyu-York trilogiyası"nın birinci hissəsində postmodernist deyim tərzindən daha çox modernist Bekketin təhkiyə prinsipindən istifadə etməsinə birincisi, postmodernist deyim sadəliyinin illüziya olması, daha sonra onun arxasında ziddiyyətlərlə dolu mürəkkəbliyin durması, Bekketin poetikası üçün səciyyəvi olan "üfunətli" mövzulara müraciəti nümunə ola bilər. Bu göstərir ki, əslində P.Oster modernist poetikanın ənənələrini postmodernist kontekstdə ehtiva etməsini nəzərə çarpdırır.

"Nyu-York trilogiyası"ında müəllif təkcə Bekketə istinad etmir. Əsərdə Homerdən, Şekspirdən, Melvilldən, Torodan gətirilmiş eksplisit və impilisit sitatlardan geniş şəkildə istifadə edilir. Nəticədə "Nyu-York trilogiyası" postmodernist poetikasının prinsipləri əsasında yaradılsa da, "yad" mətnləri öz əsərlərinin korpusunda gizlətməyə cəhd göstərməyən digər sənətkarlardan fərqli olaraq P.Oster müxtəlif mənbələrdən əxz etdiyi sitatları öz əsərinin konstruksiyasında əridir və yalnız erudisiyalı və diqqətli oxucu bu sitatları üzə çıxara bilir.

"Postmodernist poetikanın əsas prinsiplərindən biri oxucunu maksimum fəallaşdırmaqdır. Bu yolla sənətkar oxucunu təhkiyənin bütün laylarını mənimsəməyə sövq etməyə çalışır; yazıçı cəhd edir ki, oxucu əsərlə tanışlıq prosesində onun içində qapanıb qalmasın, aşıladığı düşüncə və hisslərlə kifayətlənməsin, əsərin problematikasını özünküləşdirməklə missiyasını başa vurmuş hesab etməsin. Postmodernist təhkiyənin çoxlaylılığından istifadə edən müəllif oxucuların intellektual-evristik qavrama səviyyələrindən asılı olaraq onları müxtəlif kod-açarlarla təmin edir.[1]

Bununla yanaşı P.Oster postmodernist poetikanın prinsiplərinə uyğun olaraq baş verənlər üçün müəllifin məsuliyyət daşımadığını göstərir; axı klassik realist əsərlərdə müəllif ilahi statusdan fərqli olaraq trilogiyada sujet xəttinin gedişində iştirak edən adi oyunçulardan biridir; o da oxucu və personajlar kimi hadisələrin yaranma səbəbləri haqqında heç bir məlumata

---

[1] Martin B. Paul Auster's postmodernity. New York & London: Routledge, 2007, p. 127

malik deyil və onların hansı istiqamətdə cərəyan edəcəyi ilə bağlı heç bir məsuliyyət daşımır.

Əsərdə üç nəfər-Daniyel Kvinn, Vilyam Nilson və Pol Oster eyni zamanda həm təhkiyəçi, həm müəllif, həm də uydurma personaj qismində çıxış edirlər. Sənətkar müəllifi virtuallaşdırmaqla, işarələnəni işarələyənlə əvəz etməklə təhkiyəsinin oxucu ilə modernist oyundan başqa bir şey olmadığını nəzərə çarpdırmaq istəyir: özü də bu oyunun qaydaları təkcə müəllif yox, həmçinin oxucu tərəfindən müəyyən olunur. Bununla müəllif oxucunu bərabərhüquqlu tərəfdaş kimi yaradıcılıq prosesinə cəlb etməyə çalışır.

Oxucunun rolunu vurğulamaqla müəllif P.Oster təhkiyəsinin "müəllifin ölümü" konsepsiyasına əsaslandığını vurğulayır; o, əvvəlcə müəllifi faktiki olaraq üç qismə "parçalamaqla", sonra isə mətnin yaranması, təsviri ilə bağlı bütün məsuliyyəti ozündən kənarlaşdırmaqla, xarici təsirlərdən asılı olmayan yeni-yeni mənalar yaratmaqla əsərin mətninin guya özünün iradəsindən asılı olmamasını nəzərə çarpdırır.

Müəllif trilogiyada postmodernist təhkiyəyə xas olan bir cəhətin-mətnlə gerçəklik arasında sərhədlərin pozulmasına böyük önəm verir. Bu baxımdan əsərdə reallıqla virtuallığın deyil, müştərək kontekstdə real müəlliflə onun personajlarının da həyat yollarının çulğalaşmasına rast gəlirik. Müəllif dünyada, insanların şüurunda hökm sürən xaos durumunu adekvat bədii vasitələrlə təcəssüm etmək üçün insanların həyatını, düşüncələrini, dünyagörüş mövqelərini postmodernistsayağı çulğalaşdırır. Bu çulğalaşma prossesində müəllifin "ad" siyasəti xüsusi rol oynayır. Adların parçalanması və çulğalaşması təsadüfi xarakter daşımır və müəllif tərəfindən təhkiyənin ən səmərəli vasitəsi kimi istifadə olunur və müəllifin məhz postmodernist yaradıcılıq metodunun prinsiplərindən istifadə etməsinə dəlalət edir. Göründüyü kimi P.Oster postmodernist təhkiyə çərçivəsində qəhrəmanın adını dəyişməklə bir növ onun başqasının cildinə girməyini, aktyor kimi həyat səhnəsində rol oynamasını nəzərdə tutmuşdur. Bu, öz identikliyini qoruyub saxlamaq şərti ilə başqasının simasını əxz etmək deyildi. Bu, təhkiyəçinin özündən azad olması, şüurlu şəkildə öz şəxsiyyətindən, öz identikliyindən imtina etməsi demək idi.

Romanın sonunda bütün əhvalatlar və onların mümkün variantları oxucunun nəzərinə çatdırıldıqdan sonra müəllif bir daha özünün Allah statusundan imtina etdiyini bəyan edir və əsərdə cərəyan edən hadisələrin sıravi iştirakçısı olduğunu vurğulayır.

Sənətkarın sonralar yazdığı əsərlər də postmodernist təhkiyə prinsipinə söykənsələr də onlarda özünü biruzə verən müəyyən dəyişiklikləri də

sezmək mümkündür. Bu baxımdan P.Osterin 1992-ci ildə yazdığı "Leviafan" ("Leviathan") romanı xüsusilə diqqəti cəlb edir. Bu əsərdə P.Oster postmodernist təhkiyənin son dərəcə böyük bədii təcəssüm potensialına malik olmasını üzə çıxarır: əsərdə müəllif qəhrəmanları arasında olan məhəbbət münasibətlərini, onların hiss və duyğularını bütün incəlikləri ilə təsvir etməyə nail olur. Lakin eyni zamanda sənətkar "Leviafan" romanında heç bir mənası olmayan, heç bir məntiqə sığmayan, irrasional səciyyəli cinayətləri də, bu cinayətləri açmaq üşün adekvat vasitələrlə aparılan istintaq əməllərini də əks etdirir. Tədqiqatçılar dönə-dönə qeyd edirlər ki, P.Osterin təhkiyəsi ideal və mükəmməl postmodernist təhkiyəyə nümunə sayıla bilər.[1] Biz də öz tərəfimizdən əlavə etmək istərdik ki, P.Osterin əsərləri, o cümlədən "Leviafan" romanı paradoksal şəkildə postmodernizmin universallığını ehtiva etməklə yanaşı həmçinin onun əsl "milli" amerikan variantıdır. Bu hər şeydən əvvəl onunla bağlıdır ki, onun əsərlərində amerikan gerçəkliyinin spesifik cəhətləri öz əksini tapır.

Dissertasiya işinin üçüncü fəsli *"Don Delillonun əsərlərində dünyanın fraqmentar təcəssümü"* adlanır: Üçüncü fəslin birinci yarımfəslində *("Don Delillonun postmodernist dünyagörüşündə gerçəkliyin təcəssümü")* XX əsrin II yarısından başlayaraq texnologiyalarda baş verən inqilabi dəyişikliklərlə bağlı olaraq insanın real gerçəklikdən daha çox hiperreallıqda yaşaması faktının bədii təcəssümü xüsusiyyətləri araşdırılır. Gerçəkliyin problemləri bədii sözün strukturuna son dərəcə dərin təsir göstərirlər və postmodermizm fəlsəfi – poetik baxımından modernizmin bir sıra cəhətlərini ehtiva etməklə yanaşı gerçəkliyin təcəssümü baxımından faktiki olaraq müasir tipli realizmə çevrilir. Əgər XIX əsrdə gerçəklik konkret səciyyə daşıyıb hüdudları bəlli bütov kimi realist bədii fikrin qarşısında durub "olduğu kimi" təcəssüm olunmasını, fiksionallığını, həqiqətə uyğunluqla "ört-basdır" olunmasını tələb edirdisə, XX əsrin ikinci yarısından başlayaraq kompyuter texnologiyasının həyatımıza müdaxiləsi nəticəsində gerçəkliyin özü virtuallaşıb fiksionallıq kəsb etdi, bəşəriyyət bir növ əvvəlki real və konkret gerçəklikdən virtual və "fiktiv" gerçəkliyə keçdi. Bu isə kütləvi informasiya vasitələri ilə həyata keçirilir: texniki informasiya vasitələrindən aramsız şəkildə axışıb gələn məlumatlar insanın zaman və məkan haqqında təsəvvürlərini köklü şəkildə dəyişir. Bu isə

---

[1] Gioia T. Postmodern mystery -"Leviathan" by P.Auster http://www.postmodernmystery.com/leviathan.html;
D'Urso D.J. Postmodern and existential ethics in Paul Auster's "Moon palace" and "Leviathan"http://lib.dr.iastate.edu/cgi/viewcontent.cgi?article=15454&context=rtd

reallıq və illüziyalar arasında fərqlərin aradan qalxmasına səbəb olur, xəyali (virtual) dünya ilə real (faktual) dünya bir-birinə qarışırlar.

XX əsrin sonundan D.Delillonun da ən səciyyəvi və görkəmli nümayəndələrindən biri olduğu postmodernist realizm daha cox virtual səciyyə daşıyan gerçəkliyin fiksional təcəssümü kimi təzahür etdi. D.Delillonun qəhrəmanları bir növ romantik sənətkarların personajları kimi ideal, “insani” durumu başqa real məkanda və zamanda yox, əlçatan “virtual” aləmdə axtarır.

Postmodernist bədii təcəssüm üçün xarakterik olan bu cəhətlər sənətkarın 1991-ci ildə çap olunmuş "II Mao" ("Mao II") romanında öz əksini tapır. Müəllif bu əsərdə göstərir ki, müasir şəraitdə gerçəkliyin özü tədricən konkretlikdən məhrum olur, labüd şəkildə mücərrədləşir, bir sözlə konkret gerçəklik virtual gerçəkliklə əvəz olunur. Lakin müəllif bununla da kifayətlənmir; onun təsvirində postmodernist dövrdə baş verən bu əvəzlənmənin yaratdığı fəsadlar həm ayrı-ayrı fərdlər, həm də bütövlüklə cəmiyyət üçün yeni-yeni problemlərin yaranmasına səbəb olur: insanın və cəmiyyətin ən məhrəm, ən intim ekzistensial cəhətləri virtuallaşır, yeni-yeni xüsusiyyətlər kəsb edirlər. Bu mənada “II Mao” romanında televiziya nəhəng eksperimental məkan kimi təsvir olunur; burada insanın şüurunu dəyişdirmək, onu kütlənin dinməz-söyləməz, başıaşağı elementinə çevirmək üçün təcrübələr aparılır.

"Fransız postmodernist alimi J.Bodriyar qeyd edir ki, insanları özəlləşdirmək mediyanın əsas funksiyasıdır və bu, xüsusilə televiziyalarda simulakrın gerçəkləşməsi vasitəsilə həyata keçirilir....Bodriyar kimi Delillo da inanır ki, televiziya media və xəbər ötürücüsü kimi real həyatda heç bir məna kəsb etməyən model və kodların təsvirlərini təqlid prosesinə əsaslanır."[1]

Delillonun qəhrəmanları televiziyada tamaşa etdikləri virtual aləmə o qədər qapılırlar ki, özlərini ekranda təsvir olunan surətlər kimi aparmağa başlayırlar. Delillonun qəhrəmanları üçün əsl gerçəklik qüdrətli və şüurlu məxluq kimi dərk olunan televizordur: ona istədiyin vaxt müraciət edə bilərsən; o səni ağuşuna alır, istifadənə verdiyi tamaşalara daxil olmağa, onların üzvi tərkib hissəsi olmağa, sevdiyin personajlar kimi hərəkət etməyə, düşünməyə və hiss etməyə imkan yaradır. Bu isə real gerçəkliyin

---

[1] Ghashmari A. “Living in a simulacrum: how TV and the supermarket redefines reality in Don DeLillo’s White noise” [online article], 452ºF. Electronic journal of theory of literature and comparative literature, 2010 (3), pp171-185 http://www.raco.cat/index.php/452F/article/viewFile/208104/277282

problemə çevrilməsinə səbəb olur: televiziya tamaşaçısına çevrilən, onun prinsiplərinə riayət etməyi, virtual gerçəkliyi, virtual dəyərləri dəyərləndirməyi üstün tutan “televiziya” adamı meydana gəlir. Televiziya hansı mövzuda görüntü verirsə metoforik olaraq izləyicini də bu hadisənin içinə daxil edir və beləcə izləyici implisit və ya eksplisit şəkildə televiziyanın təsirinə düşür. Əsərdəki qəhrəmanlardan biri olan Karen ekranda gördüyü adamlarla empatik münasibət qurur, sanki özünü izlədiyi topluma aid hiss edir.

Beləliklə, “II Mao” romanında “virtual reallıq” televiziya proqramları, verilişləri, kompyuter asılılığı və video-foto şəkilləri vasitəsilə həyata keçirilir. “Virtual reallıq” romanının personajları, onların aqibətləri üçün böyük əhəmiyyət kəsb edir, çünki onlar özlərini bu yalançı, uydurma reallıqdan təcrid olunmuş şəkildə təsəvvür edə bilmirlər. Əsərdə virtual xarakter kəsb edən bədii uydurma real gerçəklikdə birləşir, ayrı-ayrı fərdlərin ekzistensial maraqlarına qarşı yönəlir. İnsan virtual gerçəklik şəraitində texniki inkişafın qurbanına çevrilir, çünki virtual gerçəklik oxucuya və tamaşaçıya yalançı obrazlar və problemlər aşılayır. Müəllifin fikrincə, müasir dövrdə əsas problem aktual gerçəkliklə insanın virtuallaşmış daxili aləmi arasında meydana gələn ziddiyyətlə bağlıdır: uzun əsrlər boyu sarsılmaz görünən dəyərlər virtuallaşma şəraitində aşınmaya uğrayır. Bu isə təkcə ayrı-ayrı fərdlər üçün yox, bütün cəmiyyət üçün qorxunc təhlükə təşkil edir.

Don Delillonun yaradıcılığı amerikan ədəbi prosesinin xarakterik tendensiyalarını əks etdirir. Bu tendensiyalardan biri mücərrədliyin, virtuallaşmanın konkret gerçəkliyi sıxışdırıb arxa plana atmasında özünü biruzə verir. Müəllif göstərir ki, cəmiyyətdə baş vermiş qansız-qədasız kompyuter inqilabı tədricən texnologiya sahəsindən humanitar düşüncəyə keçmiş və insanın əbədi-əzəli ekzistensial problemlərini köklü şəkildə dəyişdirmişdir.

Dissertasiyanın III fəslinin ikinci yarımfəslində *(Don Delillonun əsərlərində “atomar” insan)* postmodernist ədəbi fikrin, o cümlədən onun görkəmli nümayəndəsi Delillonun “atomlaşmış” insan obrazına üstünlük verməsinin səbəbləri açıqlanır.

XIX əsrin sonu – XX əsrin əvvəllərində uzun əsrlər boyu təşəkkül tapmış "sarsılmaz" məntiqə söykənən sistemlər dağılır, həm elmi, həm estetik fikirdə mövcud olan dəyərlər şübhə altına alınır, süquta uğrayırdılar. İncəsənət və ədəbiyyat dünyaya nizam-intizam gətirmək əvəzinə onda mövcud olan xaosu daha da dərinləşdirirdi, incəsənət faktiki olaraq xaotologiyaya çevrilirdi. Cəmiyyətin həyatında ümumbəşəri dəyərlərin

yoxa çıxmasına adekvat cavab qismində ədəbi-bədii fikir dünyanın estetik dərkində şüurlu başlanğıcın xüsusi çəkisini azaldırdı.

Cəmiyyətin həyatında "atomlaşma" prossesinin dərinləşməsi modernist ədəbiyyatda insanı kainatda yerini yenidən dəyərləndirməyə sövq etdi. Fraqmentar xarakter kəsb etmiş dünyada özgələşmiş fərdin müdafiə edilməsi böyük əhəmiyyət kəsb etdi. Pafosu baxımdan modernizm fərd uğrunda mübarizə idi. Lakin sosial kataklizmlər modernist sənətkarların özlərinin ümidsizliyə qapılmasına səbəb olurdu. Bu əhval-ruhiyyə Delilloya da xasdır və onun əsərlərində öz təcəssümünü tapmışdır. "Absurd Delillonun qəhrəmanlarının dünyaya münasibətinin xarakterini müəyyən etməklə yanaşı, həm də onları dünyaya qarşı qoyur: məhz absurdun hökm sürməsi nəticəsində dünya fərdə qarşı düşmən mövqedən çıxış edir, fərdə qənim kəsilir."[1]

Lakin bununla belə o, "atomlaşıb" bütövlüyündən məhrum olmuş insanın məruz qaldığı xaosu dəf etmək üçün çalışırdı. Sənətkarın "Dünyanın astarı" ("Underworld") əsəri bu istiqamətdə uğurlu addım hesab olunur.

1997-ci ildə işıq üzü görmüş əsərdə məntiqi bağlılığı olmayan iki hadisədən-Nyu-Yorkun iki məşhur beysbol komandaları arasında oyundan və SSRİ-də atom bombasının növbəti ikinci sınağından bəhs edilir. Məntiqi baxımdan bu hadisələr bağlı olmasalar da, onların arasında sinxronik münasibət mövcuddur - onlar eyni gündə baş vermişlər. Bu isə artıq romanın başlanğıcında dünyanın iki müxtəlif dəyərlər sisteminə malik hissəyə - ABŞ-a və SSRİ-yə bölünməsini simvolizə edir. Açıq şəkildə ifadə olunmasa da müəllif bu təsadüfliyin və qanunauyğunluğun bir-birinə çevrilməsini və nəticədə insan böhranını dərinləşdirməsini təbii hesab edir.

"Dünyanın astarı" romanında normal əndazəyə sığmayan hadisələr cəmiyyətin və fərdin taleyində əks qüvvə kimi çıxış edir. Əsərdə total ruhi parçalanma və dağılma şəraitində insanın özünə qapanması yeganə çıxış yolu kimi təqdim olunur. Amma, əsərin pafosu bunun illüziv xarakterini üzə çıxarır. Bu insanı dünyadan təcrid edib avtokommunikasiyaya məcbur edir.

Əsərdə avtokommunikasiya qəhrəmanların dünyadan hermetik şəkildə təcrid olunmaları, özlərinə qapanmaları, "atomlaşma"ları vasitəsidir. Bu halda avtokommunikasiyanın ifadə forması olan daxili nitq dünyanı dərkin kontekstində insanın özünüdərk formasından daha çox gerçəkliklə bütün

---

[1]https://fau.digital.flvc.org/islandora/object/fau%3A1501/datastream/OBJ/view/search_for_self_in_the_postmodern_novel.pdf

əlaqələri kəsilmiş, boş-boşuna təkrar olunan düşüncəyəbənzər ifadələrin toplusuna çevrilir. Bu "şüur axını" texnikasından postmodernistsayağı istifadənin nümunəsi hesab oluna bilər.

Beləliklə Delillo "Dünyanın astarı" əsərində daxili məntiqdən məhrum olan, broun hərəkəti kimi xarakterik səciyyə daşıyan, təsadüflərdən doğulan "atomlaşmış", özgələşmiş insanların münasibətlərini, "dünyanın astarı"nı ABŞ-ın əsl tarixi həqiqəti hesab edilən ştamplardan və stereotiplərdən ibarət üst ideoloji səviyyəyə qarşı qoyur.

Dissertasiya işində əsəs elmi müddəalar aşağıdakı kimi yekunlaşdırılır:

– XX əsrin sonu - XXI əsrin əvvəllərində qloballaşma prosesində xalqların mədəni sahədə yaxınlaşması geniş vüsət kəsb etmişdir. Postmodernizmin qısa müddətdə dünyanı fəth etməsi buna əyani misal ola bilər.

– Hələ təşəkkül və inkişaf dövrünü yaşayan postdernizmin bu günkü yayğın durumunu dəyərləndirmək və inkişaf perspektivlərini müəyyənləşdirmək üçün onun yaranmasının ictimai, ideloji və estetik şərtlərinin araşdırılması böyük əhəmiyyət kəsb edir.

– Postmodernizm modernizmin incəsənətlə onun yeganə obyekti, sifarişçisi və istifadəçisi olan insan arasında yaratdığı uçurumu aradan qaldırmağa cəhd edir. Postmodernizmin intermətnlik, sitat, pastiş kimi vasitələri itirilmiş bədii bütövlüyün bərpasına xidmət edir.

– Amerikalı sənətkar P.Oster yaradıcılığında müxtəlif deyim tərzlərinin qaynayıb qarışması onun universal dəyərlərin daşıyıcıları olan postdermnist əsərlərinin meydana gəlməsinə səbəb olur.

– Postmodernizmin estetik prinsiplərindən çıxış edən P.Oster modernist sələflərin deyim tərzindən fərqli təhkiyə konsepsiyası ortaya qoya bilmişdir. Bu hər şeydən əvvəl sənətkarın postmodernist "açıq durum" konsepsiyasını bədii dil materialına tətbiq etməsi ilə bağlıdır.

– Amerika postmodernist ədəbiyyatı nümayəndəsi D.Delillo müasir insanın real gerçəklikdə deyil, hiperreal gerçəklikdə yaşamasını iddia edir. Bu isə onun fikrincə xəttilik ideyasından, ənənəvi tarixi şüurdan imtinaya gətirib çıxarır.

– Delillo postmodernist deyim tərzindən "atomlaşmış" fərd, dağılmış cəmiyyət problemini həll etmək üçün istifadə edir.

Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində əksini tapmışdır:

1. Tom Stoppard dramaturgiyasının xüsusiyyətləri // Elmi xəbərlər. Bakı: ADU, 2010, № 1, s. 218-224
2. Azərbaycan postmodernist mədəniyyətində ənənəvi-mənəvi dəyərlərin mövcudluğu // Elmi xəbərlər. Bakı: ADU, 2011, № 3, s. 316-319
3. Çağdaş Amerika və Azərbaycan ədəbiyyatında antiutopiyanın təzahür formaları /"Müasir dünyada inteqrasiya və müqavimət prosesləri" Beynəlxalq elmi konfransının materialları. Bakı: Elm və təhsil, 2012, s. 243-246.
4. Antiutopiyanın tarixi və çağdaş ədəbiyyatda onun təzahür formaları // Elmi xəbərlər. Bakı: ADU, 2012, № 2, s. 198-208
5. Pol Osterin "Bruklin yaramazlıqları" əsərində Kafka mövzusunun postmodernist şərhi / Doktorant və gənc tədqiqatçıların XVII Respublika elmi konfransının materialları: 2 cilddə, II c. Bakı: AMİU, 2012, s. 92-94
6. Çağdaş Amerika romanında intertekstuallıq və Kafka mövzusu // Elmi xəbərlər. Bakı: ADU, 2012, № 3, s. 245-251
7. Amerika postmodern romanı və metatəhkiyə / Doktorant və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları: 2 cilddə, II c. Bakı: ADU, 2013, s. 180-182
8. Postmodernist ədəbiyyatda kollaj / "Xarici dillərin tədrisinin aktual problemləri" Respublika elmi-praktik konfransının materialları. Bakı: ADU, 2014, s. 331-333
9. XX əsrin I yarısında "postmodernizm" anlayışının təşəkkülü / XXI əsr mədəni paradiqması multimədəni aspektdə Respublika elmi-praktik konfransının materialları. Bakı: ADU, 2014, s. 21-22
10. Postmodern ədəbiyyatda pastiş / Doktorant və gənc tədqiqatçıların XIX Respublika elmi konfransının materialları: 2 cilddə, II c. Bakı: ADİU, 2015, s. 26-28
11. Amerika postmodern ədəbiyyatında "virtual reallıq" problemi və onun tədrisdə nəzərə alınması / "Xarici dillərin tədrisinin aktual problemləri" Respublika elmi-praktik konfransının materialları. Bakı: ADU, 2015, s. 308-310
12. Don DeLillonun yaradıcılığında "virtual reallıq" problemi // Elmi xəbərlər. Bakı: ADU, 2015, № 3, s. 248-253
13. Особенности жанра антиутопии в творчестве Пола Остера и Анара // Гуманитарий. Мордовия: Издательство Мордовского университета, 2015, № 2 (30), с. 86-91

14. Don DeLillonun yaradıcılığında "atomar" insan konsepsiyası / "Dil və mədəniyyət" Respublika elmi-praktik konfransının materialları. Bakı: ADU, 2015, s. 132-134

15. The post-modern narrative principles of P.Auster's literary heritage / "Зимові наукові читання" За Матеріалами Міжнародроі конференції: 3 частина. Киев: Центр наукових публікацій, 2016, с. 46-49

16. Multikultural narrativ və postmodern təhkiyəsinin simbiozu-müasir ABŞ polietnik ədəbiyyatının inikasında / Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransının materialları: 2 cilddə, II c. Bakı: ADNSU, 2016, s. 556-558

17. Koqnisiya mexanizmlərinin "paralel reallığı": Amerika postmodern ədəbiyyatında "virtual reallıq" problemi/ Koqnitiv və tətbiqi dilçiliyin aktual problemləri adlı beynəlxalq elmi konfransın tezisləri. Bakı: ADU, 2016, s. 173-175

Гиля Мехди Гусейнли

# ОСОБЕННОСТИ ОТРАЖЕНИЯ ПОСТМОДЕРНИЗМА В СОВРЕМЕННОЙ АМЕРИКАНСКОЙ ХУДОЖЕСТВЕННОЙ ЛИТЕРАТУРЕ
(на основе творчества Дона Делилло и Пола Остера)

## Резюме

Диссертационная работа посвящена выявлению причин возникнования и истории постмодернизма в гуманитарной и в особенности литературно-художественной мысли, изучению воплощения принципов в американской литературе конца XX – начала XXI веков.

Диссертация состоит из введения, трех глав (каждая глава подразделяется на две подглавы), заключения и списка использованной литературы.

Во введении обосновываются актуальность избранной темы, объект и предмет исследования, а также определяются цель и задачи, уровень разработанности темы, ее научная новизна, методология, теоретическая и практическая значимость, сформулированы основные положения выносимые на защиту. Дается информация от апробации работы и ее структуры.

Первая глава диссертации – «Проблема постмодернизма в художественной литературе» – состоит из двух подглав. Здесь автор исследует историю и условию возникновение постмодернизма, а также художественные особенности постмодернистской литературы.

Вторая глава диссертации – «Творчество Поля Остера и проблемы постмодернистского повествования» – посвящена выявлению места творчества Поля Остера в современной американской литературе, проблеме постмодернистского повествования и особенностям его воплощение в творчестве писателя.

В третьей главе – «Фрагментарная воплощения мира в творчестве Дона Делилло» – исследуются особенности воплощения действительности в постмодернистском мировоззрении и проблемы «атомарного» человека в произведениях Дона Делилло».

В заключении диссертации обобщаются результаты исследования и представляются соответствующие научные выводы.

Gila Mehdi Huseynli

REFLECTED FEATURES OF POSTMODERNİSM İN CONTEMPORARY AMERİCAN FİCTİON
(based on the creativity of Don DeLillo and Paul Auster)

## Summary

The thesis is dedicated to identifying the causes of the presence and the history of post-modernism in the humanitarian or literary - artistic speculation, as well as to the study of the principles of incarnation in the American literature in late $20^{th}$ - and early $21^{st}$ centuries.

The thesis bears an introduction, three chapters (each chapter is divided into two sub-chapters), a conclusion and a list of applied literature.

The introduction substantiates the relevance of the chosen theme, the object or the subject of the study, as well as the defined purpose and objectives, the level of elaboration of the theme besides it denotes its scientific novelty, methodology, theoretical and practical significance finally, sets out the basic provisions for the inspection. It provides information on the approbation of work and its structure.

The first chapter of the thesis- "The problem of postmodernism in literature" - consists of two sub-chapters. Here the author explores the history and the emergency condition of postmodernism, and the artistic pecularities of postmodern literature.

The second chapter - "Paul Auster's creative activity and the problems of postmodern narration" - is given up to eliciting Paul Auster’s role in modern American literature and the problem of postmodern narration and the features of its expression in the works of the writer.

In the third chapter - "The fragmentary incarnation of the world in Don DeLillo's works" - examines particular embodiment of reality in the postmodern world view and the problem of "atomic" man in the works of Don DeLillo.

In conclusion, the thesis summarizes the results of the investigation and presents the relevant scientific findings.

Çapa imzalanıb: 03.04.2017
Format: 60x84 1/16. Tiraj: 80.

“Elnar LTD” mətbəəsində çap olunmuşdur.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ
РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

На правах рукописи

ГИЛЯ МЕХТИ гызы ГУСЕЙНЛИ

# ОСОБЕННОСТИ ОТРАЖЕНИЯ ПОСТМОДЕРНИЗМА В СОВРЕМЕННОЙ АМЕРИКАНСКОЙ ХУДОЖЕСТВЕННОЙ ЛИТЕРАТУРЕ
(на основе творчества Дона Делилло и Пола Остера)

5718.01 – Мировая литература (литература США)

АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по филологии

Баку – 2017